Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2004-cü il 30 sentyabr tarixli 147 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasının ərazisində ovçuluq fəaliyyətini həyata keçirmək üçün istifadə edilən ov alətlərinin növü və istifadəsi**
**Q A Y D A S I**

## I. ÜMUMİ MÜDDƏALAR

Bu qayda "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 69 nömrəli Fərmanına əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisində ovçuluq fəaliyyətini həyata keçirmək üçün istifadə edilən ov alətlərinin növü və istifadəsi qaydalarını müəyyən edir.

## II. AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ OVÇULUQ FƏALİYYƏTİNİ HƏYATA KEÇİRMƏK ÜÇÜN İSTİFADƏ EDİLƏN OV ALƏTLƏRİNİN NÖVÜ

Azərbaycan Respublikasının ərazisində həvəskar və idman ovunu həyata keçirmək üçün istifadə edilən ov alətlərinin növləri aşağıdakılardır: ov silahları; ov itləri; ovçu quşlar (alıcı quşlar) və başqa ov vasitələri.

## III. AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ OVÇULUQ FƏALİYYƏTİNİ HƏYATA KEÇİRMƏK ÜÇÜN İSTİFADƏ EDİLƏN OV ALƏTLƏRİNİN İSTİFADƏSİ

3.1.Ov silahlarının satışı, əldə edilməsi, uçotu, saxlanılması, gəzdirilməsi, tətbiqi, götürülməsi, müsadirəsi və geri alınması qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

~~3.2.Ovçular cəmiyyətlərinin hər bir üzvünə 2 ədəddən çox olmamaqla yivsiz lüləli ov tüfəngi saxlamaq, ildə 600 qramdan çox olmamaqla tüstüsüz və ya bir kiloqramdan çox olmamaqla tüstülü barıt, 10 kiloqram qırma və 25 ədəd güllə almaq hüququ verilir.~~

3.3.Ov itləri ilə təlim işləri ov mövsümündən bir ay əvvəl ov silahlarından istifadə etməməklə, yalnız ov yerlərində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bu məqsəd üçün xüsusi ayırdığı sahələrdə aparıla bilər.

3.4.Ov itlərindən ov heyvanının izlənilməsi, tapılması, vəhşi heyvan növünün ovçu üçün əlverişli olan sahəyə çıxarılmasında istifadə olunur.

3.5.Bir ovçu qrupu (üç nəfərdən az olmamaq şərtilə) çöl donuzu və ayı ovunda yalnız iki ov itindən istifadə edə bilər.

3.6.Digər vəhşi heyvanların ovlanmasında ovçu tərəfindən yalnız bir ov itindən istifadə edilə bilər.

3.7.Ovçu quşlardan ov quşlarının və ov heyvanlarının (Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına daxil edilmiş növlər istisna olmaqla) ovlanmasında istifadə edilir.

3.8.Heyvan və quş ovunda bir ovçu yalnız iki ovçu quşundan istifadə edə bilər.

3.9.Ovçu ov quşunu və açıq ov sahələrində ovlanacaq heyvanı ovçu quşa göstərdikdən sonra onu havaya buraxa bilər.

3.10.Ovçu quşlardan onların ov heyvanlarını ovlama xüsusiyyətləri (vərdişləri) nəzərə alınmaqla, ovda istifadə edilir.

3.11.Ovçu yırtıcı heyvanların ovlanması üçün tələdən istifadə edə bilər.

3.12.Azərbaycan Respublikasının ərazisində vəhşi heyvan və quşların kütləvi surətdə əldə edilməsinin qarşısının alınması məqsədilə aşağıda qeyd olunanlar qadağandır:

tor, cələ, ilgək, duzaq, gecə məşəlləri, zınqırovlar, projektor və tor kisələrindən istifadə etmək, kaman qurmaq, ov çalaları qazmaq;

yer buz bağlayarkən donan, suyun donmayan yerlərində keyləşən su quşlarının və eləcə də pərvazlaşmamış quşların vurulması və tutulması;

avtomaşınla, traktorla, motosikletlə, vertolyotla, motorlu qayıqla qovaraq ovlamaq, habelə avtonəqliyyatda yaxınlaşaraq heyvanları vurmaq;

vəhşi heyvanların dərilərini ovun qurtardığı vaxtdan 10 gün keçəndən sonra bir yerdən başqa yerə daşımaq.

3.13.Ov alətləri ilə ov edən şəxslər adamların və ev heyvanlarının yaralanmasına, habelə yanğın baş verməsinə qarşı bütün ehtiyat tədbirlərini görməyə borcludurlar.